ARAŞDIRMA: Nursuzların gizlətdikləri «Nur» həqiqətləri – 1

[Sayta qoyulub: 04:32 05.11.2008]
Oxunub: 754

Səid Nursinin əlamətlərindən bəhs etdiyi "islam dəccalı" kimə bənzəyir?

"Yeni Çağ"ın nurçularını yuxusunu qaçıracaq böyük araşdırması başlayır

Azərbaycan oxucusu ilk dəfə "Risaleyi-Nur"un təhrif olunduğunu və orada yazılanların bir çoxunun müəllifə deyil, onun yanına yerləşdirilmiş "tələbə"lərə aid olduğunu öyrəndi. Əslində bu həqiqəti Türkiyədəki bir çox qardaşımız da ilk dəfə duydu. Halbuki, bu gizli həqiqəti nurçu cameənin yuxarı elitası yaxşı bilirdi. Ancaq "ev"in sirrini kənara çıxarmamaq üçün biriləri edilənlərə göz yumdu, digərləri isə təhrifata davam etdilər. Nəticədə Quransız, hədissiz, təfsirsiz, ancaq dindar olduğunu iddia etsə də, gerçək anlamda dinin əsaslarından xəbərsiz dini kəsim yetişdirməyə müvəffəq oldular.

Çünki yaradıcısından fərqli olaraq, onun yanına yerləşdirilən "tələbələr" heç də "Quran şagirdi" hazırlamağı düşünmürdülər. Onların hədəfi dövrün siyasi ab-havasına uyğun ritm tutaraq, müridləri zombiləşdirməyi, onları "islamsız islam"a sürükləmək idi. Belə olduğu təqdirdə, din adına xurafatla beyni yuyulan gənclərdən hər sahədə istifadə etmək mümkün idi. Buna qarşı çıxan, ustadının yolu ilə yürümək istəyənlərin başına elə müsibətlər gətirildi ki, onlar abırlarına qısıldılar və onlara qarşı edilənlərin cəzasının Allah tərəfindən veriləcəyinə inandılar. Nəticədə uzun zamandan bəri ustadına, əslində İslama xəyanət edənlərin hər biri fərqli şəkildə cəzasını aldı. Bəlkə də ağır cəzanı alan Mustafa Sunqur oldu ki, o da öz nəfsinin qurbanı oldu... Ancaq mövzumuz o deyil...

Bəzi qardaşlarımız bizim "Risaleyi-Nur"la, nurçularla bağlı yazılarımızdan narahatlıq duyaraq, etirazlarını bildirirlər. Fərqli etirazlar alırıq. Birisi nə üçün "Risaleyi-Nur"la nurçuları ayırdığımızdan, digəri nə üçün Sunquru, Güləni tənqid etdiyimiz halda Səid Nursiyə toxunmadığımızdan təəssüflənir. Biz "bilinən və gizlədilən nurçuluq" seriyasında çox mətləblərə aydınlıq gətirmişdik. Bu məsələyə də aydınlıq gətirəcəyik, ancaq sonrakı yazılarımızda. Qismət olursa... İndi isə mövzuya keçək...

Heç şübhəsiz Səid Nursi XX əsrin ən maraqlı personalarından biridir. Onun açıqlamaları da hər zaman diqqət çəkib. Tərəfdarları o açıqlamalardan bir, rəqibləri daşqa bir məna çıxarıb. Və onun Dəccal və onun müsəlmanlar arasından çıxacaq köməkçisi ("İslam dəccalı") ilə bağlı söylədiklərini də uzun zaman müzakirə edərək, bundan fərqli mənalar çıxarıblar. Onun Dəccal və ya "İslam dəccalı" ilə bağlı dediklərini tanınmış müasirinə qarşı bir dəlil kimi qəbul edərək, Bədiüzzamanı dövlətin gözündən salmaq üçün əllərindən gələni etmişlər. Tanınmış müasiri ilə Səid Nursinin arasındakı fikir ayrılığı da, onların bir-birinin əksi olmaları da, müasirinina həyata keçirdiyi islahatlardan razı olmaması da araqarışdıranlar üçün göydəndüşmə fürsət olub. Təbii ki, yaxınındakı satqın tələbələrinin sonradan "Risaleyi-Nur"a etdikləri təhriflər və əlavələr də S.Nursinin Dəccal dedikdə kimi nəzərdə tutduğuna dair şübhələri artırıb. Bu da Mustafa Sunqur, Mehmet Qırxıncı, Tahir Mutlu kimi Səid Nursinin yanına yerləşdirilən nurçu liderlərin və onların "əsər"i olan Fətullah Gülənin illərlə nifrət etdikləri o tanınmış şəxsə qarşı "Dəccal" ləqəbindən istifadə edərkən, "Bədiüzzaman həzrətləri belə deyirdi" söyləyərək, Səid Nursiyə qarşı kinin azalmamasına səbəb olublar. Ancaq çox önəmli bir məqam diqqətdən qaçıb... Biz bu önəmli məqama toxunmadan öncə, qeyd etməliyik ki, yüzdəyüz Səid Nursinin müasirinə necə münasibət bəslədiyini və ya onu necə adlandırdığını demək çətindir. Bəlkə də bəzi məqamlarda o, müasiri ilə bağlı nələrsə söyləyib, hətta onu ağır ittihamlarla suçlayıb, ancaq "islam dəccalı" ilə bağlı dedikləri ciddi müzakirə olunmalıdır. Və bizim bu araşdırmamız da kimisə təmizə çıxartmaq, kiminsə günahlarını ört-basdır etmək, kimisə təkzib etmək məqsədi daşımır. Nəticədə haqqında danışılanlar haqq dünyasındadırlar və hətta birisinin haqqında kimsə bir söz deməsə belə, Uca Allah günahkarın cəzasını, günahsızın da mükafatını verəcək. Biz isə sadəcə növbəti ziddiyyətli məqamı aydınlığa qovuşdurmaq istəyirik.

Birincisi, Səid Nursi Dəccalla, özəlliklə də "İslam dəccalı" ilə bağlı söylədiklərində hər zaman gələcək zamandan bəhs edib ki, bir insanın özündən illərlə öncə vəfat edən öz müasiri ilə bağlı gələcək zamanda bəhs etməsi mümkün deyil.

İkincisi, Səid Nursi bu şəxsin "Mehdi" olmağa iddialı olduğunu həm "Məktubat"da, həm "Şüalar"da, həm də bütün "Risaleyi-Nur" külliyyatında yazıb ki, bu da deyilən insanda olmayan davranışdır. Hər

halda tarixə qısa nəzər yetirsəniz, Türkiyədə xilafətə son verən bir insanın sonradan Mehdi olmağa iddia etməsini demək, yumşaq ifadə ilə desək, ağılsızlıqdır. Səid Nursi isə iddia edildiyinin əksinə olaraq, heç də ağılsız biri olmayıb.

Üçüncüsü, Səid Nursinin “İslam dəccalı” ilə bağlı dediklərinə görə, bu şəxs böyük alim olmalıdır ki, bu da həmin ləqəbin şamil edildiyi şəxslə bağlı olmadığını ortaya qoyur.

Ancaq “İslam dəccalı” ilə bağlı deyilənlərə göz atdıqda, başqa bir isim insanın ağlına gəlir. Səid Nursinin “İslam dəccalı” tərifi bir dövlət rəhbərindən daha çox insanların beyinlərini yuyan və İslam adı altında özünə beyət etdirən bir obraz yaradır. Gəlin öncə, Səid Nursinin “İslam dəccalı” ilə bağlı dediklərinə diqqət edək.

“Risaleyi-Nur” külliyyatından olan “Şüalar” kitabının Beşinci şüasının İkinci məqamının 7-ci məsələsində deyilir:

“Rəvayət olunur ki: "Süfyan böyük bir alim olacaq, elm ilə dəlalətə düşəcək. Və çox alimlər ona tabe olacaqlar".

Bunun bir mənası da budur ki: Başqa padşahlar kimi qüvvət və qüdrət və ya qəbilə və tayfa, ya da cəsarət və sərvət kimi hakimiyyət imkanları olmadığı halda, hiyləgərliyi, fəndgirliyi və siyasi elmiylə o mövqeyi qazanar və ağılıyla çox alimlərin ağıllarını əlindən alıb, onların fətva verəni olar. Və çox müəllimləri özünə tərəfdar edər və din dərsləri olmayan təhsil sisteminə üstünlük verib, bunun üçün dayanmadan çalışar”.

Yəni, “İslam dəccalı” öncəliklə əlində iqtidar gücü olan, hansısa siyasi güc sahibi olmayacaq. Onun heç qəbiləsi-tayfası da olmayacaq ki, arxasında dayanıb, onu müdafiə etsin. Döyüşəcək cəsarəti də olmayacaq ki, özünü qorusun. Sərvət sahibi də olmayacaq. Ancaq hiyləgərliyi, fəndgirliyi və siyasi elmiylə ilə yüksələcək və ətrafındakı alimlərin əfəndisi olacaq. Və o, dinin tədrisinə qarşı çıxıb, dinə yer verilməyən dünyəvi tədris metodunu dəstəkləyəcək.

Bu elementlər Səid Nursinin “tələbələr”inin iddia etdikləri şəxsdə yoxdur. Heç həmin bölümün 14-cü bölümündə yer alan “Dəccalın mühüm qüvvəsi yəhudilərdir” cümləsi də “İslam dəccalı” ilə bağlı deyilənlər ona aid deyil. Ancaq bu heç də həmin parametrlərə uyğun birisinin olmadığı da demək deyil. Hər halda hədis və təfsir kitablarını oxuyaraq, “İslam dəccalı” ilə bağlı düşüncələrini yazan Səid Nursi bu gün yaşasaydı, o

şəxsin adını da yazardı.

Çünki Həzrəti Əlinin “İslam dünyasından çıxacaq və aldatmaqla iş görəcək” deyə, tərif etdiyi “islam dəccalı” bəlkə də bizim nəzərdə tutduğumuz şəxsdir. Ancaq hər şeyi ən yaxşı Allah Təala bilir.

İndi isə Səid Nursinin “islam dəccalı”nın parametrləri ilə həmin insanın addımlarını müqayisə edək.

Səid Nursinin bəhs etdiyi “islam dəccalı”nın İslam dünyasından, hətta Türkiyədən çıxacağını söyləyir ki, həmin insan həqiqətən Türkiyədə doğulub.

Səid Nursinin əlamətlərindən bəhs etdiyi “islam dəccalı”nın “Başqa padşahlar kimi qüvvət və qüdrət və ya qəbilə və tayfa, ya da cəsarət və sərvət kimi hakimiyyət imkanları olmadığı halda, hiyləgərliyi, fəndgirliyi və siyasi elmiylə o mövqeyi qazanar və ağılıyla çox alimlərin ağıllarını əlindən alıb, onların fətva verəni olar” deyir ki, həqiqətən də bu şəxsin özünə məxsus heç nəyi yoxdur. Bu insanın öz tayfasının olmadığı kimi, milli kimliyi də böyük sual altındadır. Birisi bunun üçün “yəhudi”, digəri “erməni” deyir ki, bunların heç biri də İslama yaxşı nəzərlə baxmayan, yeri gəldikcə qisas almaq istəyən topluluqdur. Bu şəxsin qorxaq olduğu da vurğulanır ki, keçdiyi həyat yolu, onunla bərabər yola çıxanları yarıyolda qoyub, hər zaman güclünün yanında yer almaq istəməsi bunu bir daha təsdiqləyir.

Həmin şəxs üçün əsla dostluğun əsas olmadığının ən böyük göstəricisi sevimli sözlərindən biri “ZAMAN” olmasıdır. Zaman heç vaxt yerində durmur, dəyişir. Bu şəxs də zamanın axırına düşüb, dəyişir. Ən yüksək nöqtəyə gəlmək üçün hər kəsdən faydalanmağa çalışır. Faydalandığı tənəzzülə uğradığında isə o özünə başqa bir güclü hami tapır.

Özünün sərvəti olmasa da, idarə etdiyi para, şirkətlər qrupları ilə neçə-neçə dövlətdən daha zəngin olduğunu, dünyada görünməz bir imperiya qurduğunu göstərir.

O, hiyləgərliyi ilə sağlığında görmək istəmədiyi (Bunu özü etiraf edib) Səid Nursiyə bağlı topluluğun içinə girərək, xainlərin yardımı ilə ən üst zirvəni ələ keçirməyi başarmış birisidir.

O, adının qarşısına “M” hərfini artıraraq (Halbuki doğum şəhadətnaməsində və gəncliyinə dair heç bir sənəddə belə bir şey yoxdur), müridlərinin ona “Mehdi” demələrindən xoşhal olan birisidir. Mustafa Sunqur isə onun simasında “İsa Məsihi” gördüyünü açıqlayıb. Yəni. “islam dəccalı” kimi o da “Mehdi”

və ya “Məsih” olmaq istəyir.

Üstəlik bu şəxs insanlar arasında nifaq salaraq, özünü onların fövqündə saxlamağı bacarır. Bu gün onun müridlərinin qardaş ölkəni hansı vəziyyətə gətirib çıxardığını bilmək üçün illərdən bəri barış adı altında insanları bölməyə, Türkiyəni parçalamağa yönələn konfransları izləmək lazımdır. Məjz həmin konfranslarda çıxarılan qərarlar üzdə Türkiyənin birliyini hədəfləyidisə, mahiyyətcə bu günlərin müjdəçisiydi. Bu gün onun tövsiyyələrini həyata keçirən müridlərinin xidməti sahəsində Türkiyənin baş naziri öz ölkəsini rahat dolaşa bilmir. Və o, bu ideyanı bütün dünyaya, o cümlədən Azərbaycanda da yaymaq istəyir... Nə isə mövzumuza qayıdaq.

Səid Nursinin əlamətlərindən bəhs etdiyi “islam dəccalı” din dərslərinə qarşı çıxacaq və təhsil yolu ilə öz şəbəkəsini quracaq. Dinsiz tədrislə insanları özünə bağlayacaq. İslamdan daha çox yunan fəlsəfəsinə meyl edəcək. Bunları Səid Nursi deyir. Bizim dediyimiz şəxs də məktəblərində gənclərə “islamsız islam” öyrətməklə yetinmir, bir dənə də olsun din dərsi də keçmir. Əksinə, din adına insanlar onun kitablarını oxuyurlar, din yerinə onun fikirləri gənclərə aşılanır. İnsanlar islamı öyrəndik deyirlər, ama əslində öyrəndikləri bu adamın fikirlərindən başqa bir şey deyil.

Bu insanın hədəfi müəllimlər ordusu yaratmaq və dünyanın hər tərəfinə misyoner-müəllim ixrac etmək. Səid Nursinin əlamətlərindən bəhs etdiyi “islam dəccalı” da ətrafına müəllimlər toplayacaq bir şəxs olacaqdı.

Səid Nursinin əlamətlərindən bəhs etdiyi “islam dəccalı”, yəni "Süfyan böyük bir alim olacaq, elm ilə dəlalətə düşəcək. Və çox alimlər ona tabe olacaqlar". Yəni, o, sıradan bir alim olmayacaq, digər alimlər ona ustad nəzəri ilə baxacaqlar. Anadolu Türkcəsi ilə desək, “İslam dəccalı”, xoca deyil, xocaların əfəndisi olacaq, yəni XOCAƏFƏNDİ. Bu sizə bir şey ifadə etmirmi?.. Bir az düşünməyə dəyərmi?

Yazının davamını “Nursuzların gizlətdikləri «Nur» həqiqətləri-2” yazısında oxuyacaqsınız...

A.Ə. və “Yeni Çağ” Araşdırma Qrupu